

AYNUR DƏRYA

# SƏNSİZLİK

Sənsizlikdən deyim sənə bu gecə,
Ağırdı həsrətin, ağırdı dərdin.
Ürəyin dözməzdi mən kövrəlincə,
Axan göz yaşımı özün silərdin.

Sənsizlikdən deyim sənə bu gecə,
Yenə gözü yaşlı tənhayam, yenə.
Qəlbin buz bağlayıb yoxsa ki necə,
Bu nə işgəncədir verirsən menə?

Sənsizlikdən deyim sənə bu gecə,
Bir badə şərabla ortaq olmuşam.
Dərdlərim həmdəmdi mənə bu gecə,
Sənsizlik içində dustaq olmuşam.

# GƏZİRƏM

Özüm dərdli ikən çarə gəzirəm
Dərdi mənimkindən az olanlara.
Ömrüm qışa dönüb tir-tir əsirəm,
Heyranam həyatı yaz olanlara.

Dərdimi kimləsə bölə bilmirəm,
Zorun öhdəsindən gələ bilmirəm.
Ürəkdən sevinib gülə bilmirəm,
Həsrətəm əhvalı saz olanlara.

İnsan var qəm-kədər üst-üstə gəlir,
Dərdi olsa belə sevinir, gulur.
Çox şeylər nədənsə adi görünür,
El-aləm dilində söz olanlara.

Səninlə dərdini bölən də vardir,
Yalandan ağlayıb, gülən də vardir.
Guya ki, göz yaşın silən də vardir,
Asandır üzündə üz olanlara.

# DƏRD

Dərdimi qəlbimdə necə gizlədim?
Heç gizli qalmasın, açım, söyləyim.
Qarabağ dərdidir mənim gileyim,
Göynədir sinəmi közü dərdimin.

Bu həsrət, bu hicran hacan bitəcək?
Ya arzum çin olar, ya can bitəcək
Kim mənim dərdimə çarə edəcək?
Qalıbdır yollarda gözü dərdimin.

Hər kəsin qəlbində bir arzusu var,
Bir arzu, bir ümüd onu yasadar.
Həyatım boyunca nakam arzular
Olubdur sızlayan sazı dərdimin.

İnşallah, sonlanar Qarabağ dərdi,
Ayriliq ölümdən, vallah, betərdi.
Fəsillər bir-birin əvəz edərdi,
İndi açılmayır yazı dərdimin.

Ay Aynur, gənc yaşda bu nə qubardı?
Dərdlərim xoş nə var yudu, apardı.
Ruhum şaxta tutdu, tufan qopardı,
Yayda da ərimir buzu dərdimin.